**Banklar tərəfindən şübhəli əməliyyatların və
halların müəyyən edilməsi meyarları**

Banklar tərəfindən aşağıda qeyd olunan meyarlara uyğun əməliyyatlar və hallar müəyyən edilərkən gücləndirilmiş müştəri uyğunluğu tədbirləri həyata keçirilməli, aparılan ətraflı araşdırmalar nəticəsində şübhəliliyi şərtləndirən əsasların tam olaraq aradan qalxmadığı, cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılması və terrorçuluğun maliyyələşdirilməsi şübhəsi yaratdığı müəyyən edilərsə, şübhəliliyi təsdiq edən sənədlər əlavə edilməklə dərhal şübhəli məlumat formasında Maliyyə Monitorinqi Xidmətinə təqdim edilməlidir:

1. vergi ödəyicisi olmayan fiziki şəxslərin hesabları vasitəsilə təqvim ayı ərzində aparılan hər bir nağd mədaxil və/və ya nağd məxaric əməliyyatının məbləği 20.000 (iyirmi min) manatdan aşağı, lakin mədaxil və ya məxaricin ümumi məbləği 200.000 (iki yüz min) manat və ondan yuxarı olduqda;
2. vergi ödəyicisi olmayan fiziki şəxslərin hesabları vasitəsilə təqvim ayı ərzində nağd şəkildə aparılan mədaxil əməliyyatların sayı 150 və ondan yuxarı olduqda və ya ümumi məbləği 150.000 (yüz əlli min) manat və ondan yuxarı olduqda;
3. daşınar və/və ya daşınmaz əmlakın alqı-satqısı əməliyyatları istisna edilməklə, vergi ödəyicisi olmayan fiziki şəxslərin hesabları vasitəsilə təqvim ayı ərzində nağd şəkildə aparılan məxaric əməliyyatların ümumi məbləği 100.000 (yüz min) manat və ondan yuxarı olduqda;
4. vergi ödəyicisi olmayan fiziki şəxslərə məxsus kart hesablarına (əmək haqqı kartı istisna olmaqla) digər kart hesablarından təqvim ayı ərzində qeyri-nağd şəkildə mədaxil olunan vəsaitlər üzrə əməliyyatların sayı 300 (üç yüz) və ondan yuxarı və əməliyyatların ümumi məbləği isə 15.000 (on beş min) manat və ondan yuxarı olduqda;
5. təqvim ayı ərzində vergi ödəyicisi olmayan fiziki şəxslərə məxsus hesablardan elektron cüzdanlara göndərilən vəsaitlər üzrə əməliyyat(lar)ın məbləği 15.000 (on beş min) manat və ondan yuxarı olduqda;
6. təqvim ayı ərzində vergi ödəyicisi olmayan fiziki şəxslərə məxsus hesablara elektron cüzdanlardan və ya sosial şəbəkə platformalarından daxil olan vəsaitlər üzrə əməliyyatların sayı 300 (üç yüz) və ondan yuxarı olduqda və ya əməliyyat(lar)ın məbləği 50.000 (əlli min) manat və ondan yuxarı olduqda (düzəliş edilmiş meyar);

7. təqvim ayı ərzində vergi ödəyicisi olmayan fiziki şəxslərə məxsus hesablara ödəniş terminalları vasitəsilə (ATM, müxtəlif ödəmə terminalları və s.) daxil olan vəsaitlər üzrə əməliyyatların sayı 300 (üç yüz) və ondan yuxarı və əməliyyatların ümumi məbləği isə 10.000 (on min) manat və ondan yuxarı olduqda;

8. təqvim ayı ərzində sürətli pul köçürmə sistemləri vasitəsilə müxtəlif fiziki şəxslər tərəfindən ölkə xaricindəki eyni şəxsə göndərilən vəsaitlərin ümumi məbləği 15.000 (on beş min) ABŞ dolları və ya ona ekvivalent xarici valyuta məbləğinə bərabər və ya bu məbləğdən yuxarı olduqda;

9. vergi ödəyicisi olmayan fiziki şəxslərə həmin şəxslərin yaxın qohumları[1] istisna edilməklə, digər şəxslərdən gün ərzində sürətli pul köçürmə sistemləri vasitəsilə daxil olan vəsaitlər üzrə əməliyyatların ümumi sayı 10 (on) və ondan yuxarı olduqda;

10. təqvim ayı ərzində vergi ödəyicisi olmayan fiziki şəxsə həmin şəxsin özü və yaxın qohumları istisna edilməklə bir xarici ölkədəki ən azı 3 fərqli şəxsdən daxil olan vəsaitlərin ümumi məbləği 15.000 (on beş min) ABŞ dolları və ya ona ekvivalent digər xarici valyuta məbləğinə bərabər və ya bu məbləğdən yuxarı olduqda;

11. təqvim ayı ərzində vergi ödəyicisi olmayan fiziki şəxsə həmin şəxsin özü və yaxın qohumları istisna edilməklə ən azı 3 fərqli ölkədən göndərilən vəsaitlərin ümumi məbləği 15.000 (on beş min) ABŞ dolları və ya ona ekvivalent digər xarici valyuta məbləğinə bərabər və ya bu məbləğdən yuxarı olduqda;

12. təqvim ayı ərzində vergi ödəyicisi olmayan fiziki şəxsə məxsus hesablara kriptovalyuta alışı/satışı məqsədilə köçürülən/daxil olan vəsaitlərin ümumi məbləği 30.000 (otuz min) ABŞ dolları və ya ona ekvivalent digər xarici valyuta məbləğinə bərabər və ya bu məbləğdən yuxarı olduqda;

13. siyasi nüfuzlu şəxslərin, eləcə də dövlət məmurlarının (dövlət qulluqçusu statusuna malik şəxslərin) əmək haqqı hesabları istisna edilməklə digər hesablarına təqvim ayı ərzində daxil olan vəsait(lər)in ümumi məbləği 5.000 (beş min) manatdan yuxarı olduqda (özü və yaxın qohumları tərəfindən mədaxil edilən vəsaitlər istisna olmaqla);

14. bağlanılmış borc müqaviləsinə əsasən hüquqi şəxs tərəfindən dövriyyəsinin 60 faizindən çoxu təsisçiyə borc şəklində verildikdə;

---

[1] Bu meyarlar üzrə "**yaxın qohum**" dedikdə, ər (arvad), valideynlər, o cümlədən ərin (arvadın) valideynləri, baba, nənə, nəvə, övlad, övladlığa götürülən (götürən), qardaş və bacı başa düşülür.

15. təqvim ayı ərzində vergi ödəyicisi olmayan fiziki şəxslərə məxsus hesablara xarici qeyri-hökumət təşkilatlarından, dini təşkilatlardan daxil olan vəsaitlərin ümumi məbləği 500 (beş yüz) ABŞ dolları və ya ona ekvivalent digər xarici valyuta məbləğinə bərabər və ya bu məbləğdən yuxarı olduqda;
16. ödənişin aparıldığı gündən 270 gün müddətində malların ölkəyə idxalını təsdiq edən gömrük bəyannaməsini və ya idxal olunan xidmətlərin göstərilməsini təsdiq edən sənədi banka təqdim etməyən hüquqi şəxsin həmin xarici köçürmə üzrə əməliyyat məbləği onun ümumi xərcinin (məxaricinin) 50 faizini təşkil etdikdə və əməliyyat məbləği 500.000 (beş yüz min) manatdan yuxarı olduqda;
17. vergi ödəyicisi olmayan fiziki şəxslərə məxsus hesablara gün ərzində özləri və yaxın qohumları istisna olmaqla digər şəxslər tərəfindən məbləği 5.000 (beş min) manat və ondan yuxarı məbləğdə mədaxil olunan vəsaitin 95 faizi başqa hesaba köçürüldükdə;
18. eyni hesabat dövründə alınmış səhmlərin dəyərindən 50 faiz çox məbləğdə dividend əldə edildikdə;
19. müqavilənin yerinə yetirilməməsinə görə ödənilən cərimə məbləği şəxsin il ərzində ümumi xərcinin (məxaricinin) 50 faizini təşkil etdikdə və il ərzində ümumi cərimə məbləği 500.000 (beş yüz min) manatdan və ondan yuxarı olduqda;
20. vergi ödəyicisi olmayan fiziki şəxslər tərəfindən güzəştli vergi tutulan (ofşor) ölkə və ya ərazilərə göndərilən, eləcə də həmin ölkə və ərazilərdən qəbul edilən vəsaitlərin məbləği 50.000 (əlli min) ABŞ dolları və ya ona ekvivalent digər xarici valyuta məbləğinə bərabər və ya bu məbləğdən yuxarı olduqda;
21. müxtəlif şəxslərin adlarına açılmış hesablar eyni mobil nömrəyə bağlı olduqda;
22. hesabına dövlət vəsaiti daxil olan 5 və daha çox podratçıların, subpodratçıların və ya onların tərəf müqabilərinin idarəetmə sistemində eyni şəxslər təmsil edildikdə, eləcə də eyni ünvan, elektron poçt ünvanı, telefon nömrəsi, İP ünvanlarına malik olduqda (düzəliş edilmiş meyar);
23. şel tipli şirkətlər tərəfindən əməliyyat aparıldıqda;
24. müəssisə birinci dərəcə əlilliyi olan şəxslər, eləcə də yaşı 70-dən yuxarı olan şəxslər tərəfindən təsis edildikdə və yaxud həmin şəxslər direktor təyin edildikdə;

25. vergi ödəyicilərinə aid hesablara daxil olan 100.000 (yüz min) manat və ondan yuxarı vəsaitin 10 və daha artıq müxtəlif üçüncü şəxslərin gömrük rüsumlarının (HÖP) ödənişlərində istifadə olunduqda (yeni meyar);

26. gün ərzində 3 və daha çox, 30 gün ərzində 10 və daha çox xarici ölkənin İP ünvanından bankın xidmətlərindən istifadə edildikdə (yeni meyar);

27. 5 və daha artıq fərqli şəxsə məxsus (yaxın qohumlar istisna edilməklə) hesabların vergi ödəyicisi olmayan fiziki şəxslər tərəfindən idarə edilməsi (o cümlədən mobil tətbiq vasitəsilə) (yeni meyar);

28. vergi ödəyicisi olmayan fiziki şəxslərə məxsus hesablara gün ərzində 30-dan çox mədaxil əməliyyatının aparılması (xüsusilə, TOP UP üsulu ilə) və toplanmış vəsaitin 90 faizindən çoxunun digər hesablara köçürülməsi (yeni meyar);

29. vergi ödəyicisi olmayan fiziki şəxslərə məxsus hesablar (öz və ailə üzvlərinin hesabları istisna) arasında gündəlik köçürülən vəsaitin məbləği 2.000 (iki min) manat, ay ərzində ümumilikdə 20.000 (iyirmi min) manatdan çox vəsaitin köçürülməsi (yeni meyar);

30. vergi ödəyicisi olmayan fiziki şəxslərə məxsus hesablara gün ərzində ümumilikdə 2.000 (iki min) manatdan artıq vəsait daxil olması (öz və ailə üzvlərinin hesabları istisna) və həmin vəsaitin 90 faizinin 24 saat ərzində digər şəxslərin hesablarına (VÖEN-i olan, öz və ailə üzvlərinin hesabları istisna) köçürülməsi (yeni meyar);

31. həftə ərzində, əməliyyat gününün sonuna vergi ödəyicisi olmayan fiziki şəxsin hesabı üzrə orta gündəlik qalıq (saldo) gündəlik əməliyyatların həcminin 10 faizindən aşağı olduqda (yeni meyar);

32. müştəriyə iqtisadi baxımdan faydalı olmayan əməliyyatların həyata keçirilməsi (yeni meyar);

33. müştərinin şübhəli davranışı (yeni meyar).